## *Maarif Soltan*



*"Böyük Vətən müharibəsindən sonra ədəbiyyatımıza yeni nəsillər gəlib. Qocaman şeir çinarımızın təzə-təzə təravətli yarpaqları, pöhrələri yetişib. O nəsil nümayəndələrindən biri-fitri istedada malik, ana təbiətin qoynundan pöhrələnən, Allahdan şairlik vəhyi verilmiş Maarif Soltandır. Marif Soltanın şeirlərində ritorika, şüarçılıq yoxdur. Bal arısı çiçəklərə qona-qona şəhdi-şəkər topladığı kimi, Maarif də öz mövzusunu həyatdan alır, müşahidələrindən götürür. Onun şeirlərində rəvanlıq, təbiilik əsas amildir...."*

***Xalq şairi Qabil***

### Bu yol

Bu yol görən hara gedir, ilahi?..
Enişəmi, yoxuşamı, düzəmi,
Bizəmi-Təbrizəmi?
Məbədə getmirsə hara gedir bəs?
Daha əldən düşdük, yorulduq daha,
Daha getmək olmur, təntiyir nəfəs.

Bu yolu kim gedib, birinci dəfə,
Kim salıb bu yolu, bu yol kimindir?
Əyər oğulsansa bir addım da at,
Əyər hünərin var, geri dön indi.

Nə geri qayıtmaq olur, nə də ki,
Nə də ki, irəli yerimək olur.
Sərilib qalmısan, atam balası,
Topla son gücünü qalx, ayağa dur.

Bu ulu dünyanın min bir yolu var,
Ot basmış yolu var, təzə yolu var,
Vəzifə yolu var, qeyrət yolu var,
Koroğlu yolu var, Həmzə yolu var.

Bu yol görən hara gedir, ilahi?!
Daha taqətim yox, titrəyir dizim.
Bu nə sayaq yoldu, necə yoldu ki,
Aparıb bir yana çıxarmır bizi.

İlğımlar görünür gözlərimizə
Gedirik birtəhər, yıxıla-dura.
Bilmirik, bu yolun harasındayıq,
Bilmirik, hayandı, haradır bura.

Gah yandırıb-yaxır cəhənnəm odu,
Gah da döyür bizi şaxta, qar, dolu.
Cənnət öndədirsə, onda...deməli,
Cəhənnəmdən keçir cənnətin yolu.

Sağ hanı, sol hanı?-Çaşıb qalmışıq,
Günbatan haradır, gündoğan hara?
Getmək istəyirik qibləyə sarı,
Vallah, bu yol bizi aparmır ora.

Dörd yandan cəhənnəm yelləri əsir-
Örtür arxamızca izlərimizi.
Yol deyil, bəlkə də qızıl ilandı
Qıvrılıb haçansa-çalacaq bizi.

Bu yoldursa, hara gedir, ilahi?!

### Hər şey bizdən yuxarıda...

Hər şey bizdən yuxarıda...
Dağların qarı da,
Çörək də.
Ağaclar da,

Allah da,
Arzularımız da elə,
Ümidimiz də elə.
Gələcək günlərimiz o cümlədən,
Bütün sevdiklərimiz,
Axtardıqlarımız,
Umacağımız
Bu dünyanın buludu da, buxarı da
Hamısı bizdən yuxarıda.
Ölülərimizdən savayı,
Keçmişimizdən başqa....

## *Dəlidir, nədir...*

Qayıtmışam, qayıtmışam,
Dağlar boyda həsrətimi
Bir dağ çayına atmışam.
Babam dağlar sevincindən
Sandım, hönkürəcək indi.
Yerindən tərpənmədi də
Bu dağlar dəlidir, nədir?

Dünən əkdiyim pöhrələr
Bu gün budaq qollarıyla
Yollarımı kəsibdilər
Budaqlar dəlidir, nədir?

Bulaqlar saflığı ilə
Ürəyimə köçübdülər,
Gözlərimə çökübdülər,
Bir vaxt gündə neçə kərə
Şəklimi də çəkibdilər.
Bu zalımlar bircəsini
Yadigar da saxlamayıb-
Bulaqlar dəlidir, nədir?

Uzaqlardan qayıtmışam...
Dağlar boyda həsrətimi
Bir dağ çayına atmışam.
Yenidən geri səsləyir,
Uzaqlar çağırır məni
Uzaqlar dəlidir, nədir?

## *Sənin uğrunda*

Mən
Sənin uğrunda yaşayıram, Vətən!
Yuxusuz qalıram,
İşsiz qalıram,
Qapılar döyürəm-sənin uğrunda.
Günlərimi üyüdürəm səbrlə
İki oğlumu böyüdürəm-
Sənin uğrunda.
Acı söz eşidirəm,
Minnət götürürəm-
Sənin uğrunda, Vətən.
Daşın başıma dəyir,
Başım daşına dəyir,
Ağrılarıma ümidimi məlhəm
qoyuram.
Ürəyimi qoruyuram-sənin uğrunda,
Sinənin üstündəki
Bu al-qapı, bu al-veri,
Bu apar-apart, qopar-qopart
Altdan-altdan süzürəm,-
Bəzən partlayıram, bəzən dözürəm-
Sənin uğrunda, Vətən.
Sevinməyim, gülməyim,
Yıxılıb, ölməməyim
Hamsı sənin uğrunda.
Əlimdən başqa nə gəlir...
Məni qınama, Vətən.
Yaşamaq-sənin uğrunda
Böyük bir işdir bu da!